*Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.86-88*

# "KOMPÜTER USTASI" İXTİSASI ÜZRƏ SƏRİŞTƏ ƏSASLI NÜMUNƏVİ TƏHSİL PROQRAMININ (KURİKULUMUN) HAZIRLANMA METODİKASI



**Səlimə Quliyeva,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsil şöbəsinin aparıcı mütəxəssisi*
*e-mail: selimequliyeva89@gmail.com*

"Kompüter ustası" ixtisası üzrə təhsil proqramının (kurikulumun) məqsədi bu ixtisası seçmiş tələbələrə müstəqil həyatda lazım olan əməli biliklərin öyrədilməsi və onların məntiqi təfəkkürünü inkişaf etdirməkdən ibarətdir. Bu ixtisasın təhsil proqramı dövlət təhsil standartlarına uyğun peşə təhsilinin məzmununu və mənimsənilmə qaydalarını müəyyən edir. "Kompüter ustası" ixtisasının kurikulumu və peşə standartı kvalifikasiya standartı əsasında maraqlı tərəflərin (işəgötürənlər, ilk peşə-ixtisas təhsili müəssisələri və s.) nümayəndələrindən ibarət işçi qrupu tərəfindən "İlk peşə-ixtisas təhsilinin Dövlət standartları" layihəsi əsasında hazırlanır.

Kompüter ustası həm bütövlükdə kompüterin, həm də onun ayrı-ayrı hissələrinin iş mexanizmini dərk etmək üçün fizika və riyaziyyatı, xüsusilə də fizikanın elektrik və maqnit, riyaziyyatın isə riyazi məntiq bölmələrini dərindən mənimsəməlidir. Eyni zamanda üzləşdiyi problemin, məhz hansı səbəbdən (və ya səbəblərdən) yarandığını aydınlaşdırmaq üçün mümkün mənbələri yoxlayıb aradan qaldırmalıdır. Bu işdə ixtisasını dərindən bilməklə yanaşı, məntiqi mühakimə yürüdə bilmək qabiliyyəti, ustaya xas olan intuisiya, səbirli, soyuqqanlı olmaq kompüter ustasına çox kömək edə bilər.

Kompüter texnologiyası iki hissəyə bölünür:

***Aparat təminatı*** (hardware) dedikdə, kompüteri təşkil edən və onu şəbəkəyə qoşan bütün avadanlıqlar çoxluğu nəzərdə tutulur.

***Proqram təminatı*** (software) dedikdə, informasiya emalının təşkili və idarə edilməsi üçün istifadə olunan proqramlar kompleksi başa düşülür.

"Kompüter ustası" ixtisası üzrə mütəxəssisin vəzifə öhdəliklərinə aşağıdakılar daxildir:

*– əməyin mühafizəsi və təhlükəsizlik texnikasına dair müəssisədaxili təlimatlar çərçivəsində fəaliyyət göstərmək;*

*– iş planı hazırlamaq üçün resursları müəyyən etmək;*

*– plana əsasən görəcəyi işlərin ardıcıllığını və sərf olunacaq zamanı müəyyən etmək;*

*– iş prosesində keyfiyyət tələblərinə uyğun fəaliyyətini planlaşdırmaq və həyata keçirtmək;*

*– kompüterlərin cari və əsaslı təmiri;*

*– kompüter avadanlıqlarını, giriş və çıxış qurğularını, surətçıxaran aparatları əsaslı təmir etmək və xidmət göstərmək;*

*– fiziki problemli (sıradan çıxmış komponentlər) kompüterlərə texniki baxış keçirib, istifadəçiyə məlumat vermək;*

*– nasaz mexanizm və detalları bərpa etmək və ya dəyişdirmək;*

*– kartriclərin və digər qovşaqların sökülməsini, quraşdırılmasını və təmirini həyata keçirtmək;*

*– təlimata uyğun printerin və skanerlərin sazlanmasını həyata keçirtmək;*

*– lokal şəbəkələr qurmaq;*

*– şəbəkə kabellərini - naqilsiz (Wi-Fi), şəbəkə*

*avadanlıqlarını quraşdırmaq (Switch, ADSL Modem, Router, Wi-Fi);*

*– şəbəkədə bir kompüterdə olan faylların şəbəkə vasitəsi ilə digər kompüterlərdə istifadəsini təmin etmək (FTP server);*

*– şəbəkədə bir kompüterə qoşulmuş printerin digər şəbəkədəki kompüterlər tərəfindən də istifadəsini təmin etmək;*

*– müşahidə kameralarına, giriş və çıxış qurğularına texniki servis xidməti göstərmək və s.*

Kompüter ustası Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bütün əmək hüquqlarından istifadə edir.

**Kompüter ustasının aşağıdakı hüquqları vardır:** *özünün əmək fəaliyyətinin təşkili və şərtləri üzrə rəhbərliyə təkliflər vermək; öz vəzifə öhdəliklərinin icrası üçün zəruri olan informasiya materiallarını və normativ-hüquqi sənədləri rəhbərlikdən tələb etmək, əldə etmək və istifadə etmək; onun işi ilə bağlı məsələlərin müzakirə olunduğu konfrans və müşavirələrdə iştirak etmək; öz ixtisasını artırmaq.*



Kompüter ustası ona həvalə olunmuş vəzifə öhdəliklərinin vaxtında və keyfiyyətli həyata keçirilməsinə; öz fəaliyyəti üzrə rəhbərliyin əmr, sərəncam və tapşırıqlarının, normativ-hüquqi aktların tələblərinin vaxtında və müvafiq qaydada yerinə yetirilməsinə; daxili intizam, yanğın təhlükəsizliyi və təhlükəsizlik texnikası qaydalarına riayət edilməsinə; qüvvədə olan normativ-hüquqi sənədlərdə nəzərdə tutulmuş xidməti sənədlərin vaxtında və keyfiyyətli rəsmiləşdirilməsinə; oz fəaliyyəti üzrə statistik və digər informasiyanın müəyyən olunmuş qaydada təqdim edilməsinə; müəssisənin fəaliyyətinə, işçilərinə və digər şəxslərə təhlükə yaradan təhlükəsizlik texnikası, yanğına qarşı və sanitariya qaydalarının pozulmasının aradan qaldırılması üzrə rəhbərliyin vaxtında məlumatlandırılması da daxil olmaqla, operativ tədbirlər həyata keçirilməsinə görə məsuliyyət daşıyır. Qüvvədə olan qanunvericiliyə əsasən, kompüter ustası əmək intizamının, qanunvericilik və normativ-hüquqi aktların pozulmasına görə təqsirin ağırlıq dərəcəsindən asılı olaraq intizam, maddi, inzibati və ya cinayət məsuliyyətinə cəlb edilə bilər.

"Kompüter ustası" ixtisası üzrə təhsilalanlar kompüterlərin istifadə edildiyi dövlət sektorundakı bütün təşkilatlarda, özəl şirkətlərin və bankların İT mərkəzlərində iş tapa bilərlər. Həmçinin onlar öz adlarına biznes aça, kompüter satışı və texniki dəstək xidmətləri göstərən şirkətlərdə texniki xidmət işçisi kimi fəaliyyət göstərə bilərlər.

Kompüter ustası işində mükəmməl olması üçün kompüterin daxili və xarici avadanlıqları haqqında mükəmməl biliyə sahib olmalı, kompüterin normal işlək vəziyyətdə necə çalışdığını əvvəlcədən bilməli və istifadəçidən problem haqqında məlumat almalıdır.

Kompüterdəki nasazlıqların istifadəçinin səhvi və ya səhlənkarlığından qaynaqlandığını bilən kompüter ustası səhvləri istifadəçilərə başa düşə biləcəkləri bir dildə əsəbiləşmədən və gərginliyə səbəb olmadan izah etməlidir. Eləcə də kompüter ustası işə başlamazdan əvvəl texniki vasitələrə ümumi baxış keçirməli, kompüterlərin ən böyük qatili olan elektrostatik boşalmanın qarşısını almaq üçün müvafiq tədbirlər görməlidir.

"Kompüter ustası" ixtisası aşağıdakı modul və təlim nəticələrindən ibarətdir:

**Modul 1**. Kompüter sisteminin profilaktik təmiri və texniki xidmət proqramlarından istifadə edilməsi.

**Modul 2.** Kompüterin daxili qurğularının quraşdırılması, yaranan nasazlıqların diaqnoz edilməsi və problemlərin aradan qaldırılması.

**Modul 3.** Kompüterin xarici avadanlıqlarının quraşdırılması və yaranan problemlərin həll edilməsi.

**Modul 4.** Əməliyyat sisteminin quraşdırılması, idarə edilməsi və yaranan problemlərin aradan qaldırılması.

**Modul 5.** Sadə şəbəkələrin qurulması, yaranan nasazlıqların diaqnoz edilməsi və problemlərin aradan qaldırılması.

**Nümunə:** modul 4. Əməliyyat sisteminin quraşdırılması, idarə edilməsi və yaranan problemlərin aradan qaldırılması.

***Modulun ümumi məqsədi:*** Bu modul tamam-

landıqdan sonra tələbə kompüterin ilk açılış parametrlərinin tənzimlənməsini, format olunmasını, əməliyyat sisteminin, drayverlərin və proqramların yüklənməsini, yaranan bəzi problemləri və onların həlli yollarını, antivirus proqramlarının yazılmasını, əməliyyat sisteminin dəyişdirilməsini, lisenziyalı proqramların kompüterə yazılmasını, itmiş və yaxud silinmiş məlumatların bərpa olunmasını və virusların təmizlənməsini bacarır.

***Təlim nəticəsi 1.*** Kompüterin ilk açılış parametrlərini tənzimləmək.

BİOS və POST haqqında əsas anlayışları, BİOS-un növlərini, BİOS-un xüsusiyyətlərini, BİOS-un sistem parametrlərini bilir və müvafiq BİOS quraşdırma səhifəsinin seçilməsini, montaj zamanı səhvlərin aşkarlanması və düzəldilməsini, aşkarlanan səhv mesaja görə səhvin düzəldilməsini, tənzimlənən parametrlərin yoxlanılmasını və təchizat üçün uyğun əməliyyat sisteminin müəyyənləşdirilməsini bacarır.

**Təlim nəticəsi 2.** Əməliyyat sisteminə və konfiqurasiyaya uyğun olan müasir proqramları quraşdırmaq.

İtmiş və yaxud silinmiş faylların bərpa edilməsini, Arxivator Antivirus proqramlarının, Driver və utilitlərin yazılmasını bacarır.

Dərslər laboratoriya şəraitində keçirilir.



Praktik işlər nəzəriyyə ilə həyati bacarıqlar arasında körpü rolunu oynayır, müstəqil fəaliyyəti inkişaf etdirir, tələbələrdə xüsusi bilik və bacarıqların formalaşmasına xidmət etməklə yanaşı, onlarda seçdikləri ixtisas haqqında müəyyən təsəvvürləri formalaşdırır.

"Kompüter ustası" ixtisasının nəzəri təlim və istehsalat təlimi üzrə qiymətləndirmə nümunələri:

| № | Tapşırıqlar | Bəli | Xeyr | Qeydlər |
|---|---|---|---|---|
| | **Suallara cavab verin:** | | | |
| 1 | Əməliyyat sistemləri yerinə yetirdiyi funksiyalara görə neçə qrupa bölünür? | | | |
| 2 | Servis proqramlarının yerinə yetirdikləri əsas funksiyalar hansılardır? | | | |
| 3 | Utilitlər hansı funksiyaları yerinə yetirirlər? | | | |
| 4 | Viruslar hansı əlamətlərə görə təsnif olunur? | | | |
| 5 | Antivirus proqramlarının hansı tipləri mövcuddur? | | | |
| | **Düzgün cavab variantını seçin.** | | | |
| 1 | Sistem proqram təminatının əsas funksiyası:<br>a) Kompüterin işini və informasiyanın emalı prosesini idarə etmək<br>b) İnformasiya mübadiləsini həyata keçirtmək<br>c) Kompüterə qoşulan xarici qurğuların parametrlərini təyin etmək<br>d) Kompüter ilə istifadəçi arasında dialoq yaratmaq<br>e) Müəyyən sinif məsələlərinin həllini təşkil etmək | | | |
| 2 | Antivirus proqramı hansı növ proqrama aiddir?<br>a) Serviz proqramına<br>b) Tətbiqi proqram təminatına<br>c) Əməliyyat sistemlərinə<br>d) Xüsusi nəzarət proqramına<br>e) Üsulayönümlü proqrama | | | |
| 3 | Texniki xidmət proqramının vəzifəsi?<br>a) Kompüterin düzgün işləməsinə nəzarət etmək və nasazlıqları aşkar etmək<br>b) İstifadəçiyə yeni interfeysi təqdim etmək<br>c) İstifadəçiyə əlavə xidmət etmək və ƏS-nin imkanlarını genişləndirmək<br>d) Fayl sisteminə və disklərə xidmət<br>e) Verilənlərin bərpası və arxivləşdirmə | | | |
| 4 | Kompüter qurğularının və ƏS-nin optimal iş rejimini təmin etmək üçün istifadə olunan proqramlar necə adlanır?<br>a) Xidməti proqramlar<br>b) Sistem proqramları<br>c) Köməkçi proqramlar<br>d) Tətbiqi proqramlar<br>e) Standart proqramlar | | | |
| 5 | Arxivləşdirmə proqramlarına aid olmayanlar:<br>1) MS Word 2) WinZip 3) MS DOS 4) UNIX 5)Winrar<br>a) 4,5<br>b) 2,3,4<br>c) 1,3,4<br>d) 1,2.3<br>e) 3,5 | | | |
| | **Verilən tapşırığı yerinə yetirin:** | | | |
| 1 | Əməliyyat sistemini yükləyin | | | |
| 2 | Disklərin bölünməsi və formatlama əməliyyatını yerinə yetirin | | | |
| 3 | Driver və utilitləri yazın | | | |
| 4 | Antivirus proqramını yazın | | | |